# Kahramanmaraşda məhəllənin adı "Azərbaycan", təməli isə qardaşlıqdır

***Möhtərəm Prezidentin Türkiyəyə işgüzar səfəri və Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılış mərasimi eyni kökdən gələn qardaşların bir-birinə yardımı sadə məfhumu ifadə etmir və daha köklü, konseptual məsələdir.***



Bəhruz MƏHƏRRƏMOV,
Milli Məclisin deputatı.

2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında oldu. Cənab İlham Əliyev bütün aidiyyəti dövlət strukturlarını ilk saatlardan səfərbər etdi, zəlzələ bölgəsində Türkiyənin özündən sonra ən böyük heyətlə azərbaycanlı həkimlər, xilasedicilər, könüllülər göndərildi. Habelə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə xalqın könüllü formada zəlzələ bölgəsinə yardımların daha səmərəli formada istiqamətlənməsi işi təşkil edildi.

Həmçinin, Prezident İlham Əliyevin Türkiyənin Azərbaycandakı səfirliyində başsağlığı nitqi tək ürək, tək yumruq olmuş Azərbaycan xalqının hisslərinin və dövlətimizin mövqeyini, vahidliyini təcəssüm etdirilməsinin ən gözəl ifadəsi idi.

Habelə, ötən il fevralın 14-də andiçmə mərasimində möhtərəm Prezident yeni dövrdə Azərbaycan Respublikasının bütün istiqamətlər üzrə, o cümlədən xarici siyasət sahəsində prioritetlərini açıqlayarkən Türk dünyası ilə əlaqələri yol xəritəmizin vacib elementi kimi müəyyən etmiş, Türk Dövlətləri Təşkilatının bizim üçün əsas beynəlxalq təşkilat olduğunu bəyan etmişdi. Səbəb isə çox sadə formula əsaslandı, dövlət başçımızın qeyd etdiyi kimi, "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır".

Eyni kök, eyni dil və din amili bizim qardaşlığımızın təməlində dayanan vacib elementlərdir. Lakin biz dünya nümunəsinə baxsaq, çoxsaylı eyni kökdən gələn dövlətlər var ki, bu gün diplomatik münasibətlər qura bilməyiblər və yaxud çoxsaylı müharibələr var ki, elə eyni kökdən olan xalqlar arasında gedir. Lakin Ulu Öndərin hakimiyyətə gəlişi ilə Türk dünyası ilə münasibətlər sağlam formada bərqərar olunmağa başladı. Cənab İlham Əliyev isə bütün müstəqil türk dövlətləri ilə əlaqələrimizi strateji müttəfiqlik səviyyəsinə ucaltdı. Bu isə o deməkdir ki, ölkələr arasında münasibətlərin inkişaf tendensiyası liderlərin şəxsi keyfiyyət və münasibətlərindən çox asılı olan məsələdir. Ayrı-ayrı Türk dövlətlərinin liderləri ilə sağlam və qarşılıqlı etimada əsaslanan münasibətləri formalaşdırmaqla cənab İlham Əliyev ölkələr arasında rəsmi təmasların artırılmasına, ələqələrin dərinləşməsinə, güclənməsinə, Türk dünyasının ümumi maraq və mənafelərdə ehtiva olunan məsələlərdə vahid rakursdan çıxış edə bilməsinə nail oldu. Liderlər arasında münasibətlərdən danışarkən, İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla dostluq-qardaşlıq əlaqələri xüsusi qeyd olunmalıdır. Məlumdur ki, Vətən müharibəsi və sonrakı dövrlərdə qardaş Türkiyə və şəxsən cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycanın yanında oldu, siyasi dəstəyini əsirgəmədi. Eyni zamanda ən çətin məqamlarda, Türkiyədə meşə yanğınları və dəhşətli zəlzələ zamanı isə qardaş ölkənin köməyinə çatan ilk lider İlham Əliyev və birinci dövlət Azərbaycan oldu. Ümumiyyətlə, Azərbaycan-Türkiyə münasibətləri özünün unikal xarakterinə, sağlam və möhkəm təməllərə əsaslanmasına, habelə dövlətlərin bərabərhüquqlu əməkdaşlığı baxımından ideal məzmununa görə qlobal miqyasda çox az rast gəlinən əmsaldır. Qütblərarası münasibətlərin kəskinləşdiyi, ziddiyyətlərin dərinləşdiyi bir məqamda, xüsusilə həssas bir regionda belə bir əməkdaşlıq və tərəfdaşlıq nümunəsini yaratmaq, qorumaq və daha da inkişaf etdirmək, təbii ki, ölkə rəhbərlərindən ciddi iradə və qətiyyət tələb edir. Cənab İlham Əliyev həmişə Türkiyə-Azərbaycan münasibətlərinə xüsusi önəm vermiş, əsası Ulu Öndər tərəfindən qoyulan Azərbaycan-Türkiyə qardaşlığının müasir məzmununun Şuşa Bəyannaməsi ilə tam yeni müstəviyə daşınmasının əsas memarıdır. Qlobal miqyasda qətiyyətli siyasətçi, sözünün sahibi olan lider kimi, habelə dar günün dostu kimi tanınan cənab İlham Əliyev, o cümlədən də Türkiyəyə münasibətdə dəfələrlə aydın, birtərəfli və konkret mövqe nümayiş etdirmişdir. 2014-cü il aprel ayının 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə Şərq tərəfdaşlığı Proqramının 5 illiyinə həsr olunan sammitdə Türkiyənin bu tədbirdə təmsil olunmamasından sui-istifadə edən o zamankı Ermənistan prezidenti, Xocalı canisi Serjik Sarkisyan plenar iclasın mövzusundan tamamilə kənara çıxaraq, diqqəti "soyqırımı" məsələsinə yönəldərək Türkiyəni əsas tənqid hədəfi kimi seçərkən Prezident İlham Əliyev qeyd etmişdi ki, "Türkiyə burda yoxdursa, mən varam". Bu, qlobal miqyasda dostluq, qardaşlıq münasibətlərinin və sədaqətin analoqu görünməyən səviyyədə nümayişi idi. O cümlədən, ötən dövr ərzində cənab Prezident digər bir çox məsələlərdə qardaş dövlətimizin qarşılaşdığı problemlər zamanı Türkiyəyə dəstək verən ilk lider olmuşdur.

Türkiyədə baş verən dəhşətli zəlzələdən dərhal sonra zəlzələ bölgəsində həyata keçirilən axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə cənab İlham Əliyevin göstərişinə əsasən elə ilk gündən Fövqəladə Hallar Nazirliyinin 420 nəfərlik xilasedici heyəti tam təchizat, müvafiq avadanlıqlar və axtarış itləri ilə bərabər Türkiyəyə yola salındı və hadisə yerində proseslərdə iştiraka cəlb edildi. Bundan əlavə, zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Fövqəladə Hallar Nazirliyinin zəruri avadanlıq və ləvazimatları ilə təchiz olunmuş mobil səhra hospitalı, o cümlədən tibbi və qeyri-tibbi olmaqla, aidiyyəti peşəkar personaldan ibarət heyət ilk saatlardan Türkiyəyə göndərildi. Prezident Rəcəb Tayyib Ərdoğanın da Kahramanmaraşda dediyi kimi, "bu çətin dövrdə ölkəmizin köməyinə ilk gələnlərdən biri Can Azərbaycandır. Fəlakət xəbərini alar-almaz "Səninləyəm, Türkiyəm!" deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var".

Həmçinin, cənab İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında müvafiq əməkdaşlıq sazişi imzalandı və möhtərəm cənab Prezident əsl qardaşlıq nümunəsi nümayiş etdirərək həmin bölgədə baş verən zəlzələdən zərər çəkmiş insanların imdadına çatılması, Türkiyə dövləti ilə həmrəylik nümayişi məqsədilə yenidənqurma fəaliyyətinə özünün əməli dəstəyini verdi və bunun üçün dərhal dövlət büdcəsindən yetərli məbləğ ayrıldı.

Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın özünün də Bitlis vilayətindəki məşhur çıxışında da ifadə etdiyi kimi, "Azərbaycanın və şəxsən cənab İlham Əliyevin dost, qardaş mövqeyinə əmin olan Türkiyə cəmiyyəti isə bir daha gördü ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" ideologiyası bu gün cənab İlham Əliyev tərəfindən tarixin heç bir dövründə olmadığı qədər güclü və əzmli formada yaşadılır".

Həqiqətən də təhlil etdikdə, Ulu Öndərin zamanında başlanmış bu əlaqələr Azərbaycanın da, Türkiyənin də müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü əhatə etməklə, suveren iradələrə təsir etmədən qardaşlıq münasibətlərinin təntənəsidir.

Xatırlayaq, Kahramanmaraşda zəlzələ olan dövrdə Azərbaycanda vəziyyət necə idi? Təsəvvür edin, müharibə yenicə başa çatmışdı, minalardan təmizləmə, quruculuq-bərpa prosesi başlanmışdı, eyni zamanda Azərbaycan ərazisində hələ separatizm ocağı mövcud idi. Belə bir vəziyyətdə Azərbaycan özünü "beynəlxalq ictimaiyyət" adlandıran subyektlərin ədalətsiz hücum kampaniyalarına məruz qalmışdı. Üstəlik, heç bir zərurət olmadan, yalnız təzyiq məqsədilə Azərbaycanın məsələləri BMT Təhlükəsizlik Şurasında qaldırılırdı, separatçıların aclıq və TIR şoularına ehtiva olunan təxribatçı addımlar həmin dövrün xarakterik xüsusiyyəti idi. Azərbaycan o zaman bu problemlərin içində ola-ola tərəddüdsüz Türkiyənin yardımına çatdı. Bu, bizim gücümüzün, imkanımızın, Azərbaycanın cənab İlham Əliyevin rəhbərliyi ilə nə qədər doğru yolla, düz yolla irəlilədiyinin göstəricisi oldu. Bu bir Azərbaycan nümunəsi olmaqla bərabər, həm də cənab İlham Əliyevin qlobal məsuliyyət indeksi üzrə ustad dərsi idi. Təbii ki, Azərbaycanın ekstra gücü, imkanları, qüdrəti, maliyyə imkanları olmasa idi, biz bunları edə bilməzdik və nəzərə alaq ki, qeyd etdiyimiz kimi, həmin dövrdə Qarabağda, Şərqi Zəngəzurda da quruculuq-bərpa prosesi gedirdi. Cəmi 8 ay ərzində Füzuli Hava Limanının açılışına şahidlik etmişdik, sürətlə infrastruktur layihələri həyata keçirilirdi. Lakin Azərbaycanda həyata keçirilən düzgün siyasət, əlavə maliyyə imkanlarımız bizə imkan verdi ki, Kahramanmaraşda da bu proseslərə başlayaq. Bununla həm də hər kəs gördü ki, Azərbaycan-Türkiyə qardaşlığı Şuşa Bəyannaməsi imzalandıqdan yalnız sənəd üzərində niyyət deyil, həmçinin birgə hərəkət imkanıdır. Bir sözlə, cənab İlham Əliyev bizim strateji müttəfiqliyimizi, qardaşlığımızı praktik zəmində bütün dünyaya bir daha nümayiş etdirdi. Bütün bu məqamları Şuşa Bəyannaməsinin fonunda təhlil edərkən əminliklə deyə bilərik ki, yalnız cənab İlham Əliyevin Kahramanmaraş təşəbbüsü həm də bu sənədin kifayət qədər ciddi fəaliyyətə çevirə bildiyimizi göstərir. Münasibətlərimizin daha da güclənməsi, ölkələrimizin regionda sülh və təhlükəsizliyin qarantına çevrilməsi ilə bərabər, həm də ən mürəkkəb vaxtlarda müttəfiqliyimizin tam yeni məcrada təqdirəlayiq nümunəsi formalaşdırılıb.

Möhtərəm Prezidentin Kahramanmaraşdakı tarixi çıxışında da ifadə etdiyi kimi, "Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün "Azərbaycan" məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür". ■

Respublika .- 2025.- 22 iyun (№ 127).- S.3.